# Seul Milli Universiteti

Seul Milli Universiteti *(Seul National University)* Cənubi Koreyanın paytaxtı Seul şəhərinin Kvanakku rayonunda yerləşir və ölkədə yaradılmış ilk milli universitetdir. Böyük Britaniyanın "QS World University Rankings" jurnalının 2016-2017-ci tədris ili üçün dünya universitetlərinin reytinqinə əsasən, Seul Milli Universiteti 100 ən yaxşı ali məktəb arasında 35-ci, ötənilki reytinq sıralamasında 36-cı, "The Times Higher Education World University Rankings" jurnalının 2016-2017-ci tədris ili üçün reytinqində 73-cü yerdə qərarlaşıb. Ali məktəb ayrıca olaraq Asiya regionunun ən yaxşı universitetlərinin reytinq sıralamasında 10-cu, Cənubi Koreyanın ali məktəbləri arasında isə birinci yerdədir. 2015-ci ildə "Royter Thomson"un araşdırmasına görə, Seul Milli Universiteti dünyanın ən innovativ elmi-tədqiqat universitetləri arasında 31-ci yerdə olub.

**Yerləşir:** Cənubi Koreya, Seul şəhəri
**Yaranma tarixi:** 1946-cı il
**Tipi:** Dövlət
**Akademik heyət:** 5807 nəfər
**Tələbələrin ümumi sayı:** 28630 nəfər
**Rəsmi saytı:** www.snu.ac.kr





*Biologiya tədqiqatları laboratoriyası*



*Universitetin mərkəzi kitabxanası*



*2016-cı ilin məzun günü*

## Tarixi

1946-cı il avqustun 22-də Seulda 10 ali məktəbin (Kenson Universiteti, Kenson Hüquq Kolleci, Sənaye Mühəndisliyi, Dağ-mədən, Tibb, Stomatologiya, İqtisadiyyat məktəbləri, Suvin Kənd Təsərrüfatı Kolleci, Normal Məktəb, Normal Qızlar Məktəbi) birləşdirilməsi nəticəsində Seul Milli Universiteti yaradılır. Universitetin ilk prezidenti Harri Ansted təyin olunur. Bir il yarım tələbə və müəllimlər məktəblərin birləşdirilməsi və Koreyada ABŞ ordusu administrasiyasının yaradılmasına qarşı kütləvi aksiya keçirirlər. Nəticədə 320 professor işdən azad edilir və 4950 tələbə universiteti tərk edir. Seul Milli Universitetinin ikinci prezidenti Li Çunho 1947-ci ildə təyin edilir. 1950-1953-cü illər Koreya müharibəsi dövründə universitet Punsan şəhərində yerləşən digər ali məktəblərlə birləşdirilir. İlk vaxtlar universitetin kampusu Daehanqno və Jonqno rayonlarında yerləşsə də, 1975-1979-cu illər arasında kampus Kvanakku rayonuna köçürülür. Jonqno rayonunda hazırda Tibb, Stomatologiya və Tibb bacısı kollecləri fəaliyyət göstərir və onların yerləşdiyi ərazi Yeongeon kampusu adlanır.

2007-ci ildə universitet "Uzunmüddətli inkişaf planı" qəbul edib. Planın əsas prioritetləri sırasında 2010-cu ildə qlobal miqyasda təhsilin səviyyəsinin yüksəldilməsi, 2015-ci ildə elmi-tədqiqatlar sahəsində dünya səviyyəli universitetlər sırasına çıxmaq, 2025-ci ildə isə elmi-tədqiqat planında aparıcı universitet statusu qazanmaq olub. Universitet hər il öz strateji xəttinə sadiq qalır, bu isə özünü ali məktəbin məzunlarının dünyanın ən nüfuzlu kompaniyalarında işlə təmin olunmasında göstərir. Bu gün Asiya regionunda qlobal əhəmiyyəti və nüfuzu ilə tanınan universitet tələbələrinin daha keyfiyyətli təhsil alması və peşəkar mütəxəssis kimi yetişməsi üçün var gücü ilə çalışır. Ali məktəb dünyanın 60 ölkəsindəki 291 universitet, 611 kollec, 274 tədqiqat mərkəzi ilə əməkdaşlıq edir. 2016-cı ildə Seul Milli Universiteti 70 illik yubileyini qeyd edib.

## Universitet bu gün

Seul Milli Universitetinin 3 kampusu - Kvanak və əlavə Yeongeon, Daehangno kampusları mövcuddur. Universitetin əsas kampusu olan Kvanak 1975-ci ildə tikilib və Kvanakku və Sillim-donq rayonu ərazisində yerləşir. Kampusda 200-dən çox bina var və onların əksəriyyəti 1990-cı ildən sonra inşa edilib. Kvanak kampusundan 1,5 km aralıda Seul Milli Universiteti metro stansiyası (Seul metrosundan 2-ci xətt) yerləşir. Həmin stansiyadan şəhərciyə avtobuslar işləyir. Kampusda Kvanaksa adlanan yataqxana kompleksi mövcuddur. Bu kompleks 1975-ci ildə yaradılıb. Başqa ali məktəblərin yataqxanalarından fərqli olaraq burada komendant saatı tətbiq olunmayıb. Kompleksdəki binalarda 3500-dən çox tələbənin məskunlaşması mümkündür. Yataqxanaların yaxınlığında Nakseonqdae stansiyası yerləşir.Tibb, Stomatologiya məktəbləri, universitet xəstəxanaları Han çayından şimalda salınmış Yeongeon kampusundadır. 2003-cü ildə Kənd təsərrüfatı, Biologiya elmləri və Baytarlıq məktəbləri Yeongeon kampusundan Kvanak şəhərciyinə köçürülüb. Yeongeon kampusunun yaxınlığında Hiehva metro stansiyası (Seul metrosundan 4-cü xətt) yerləşir. Bu kampusda da tələbə və müəllimlərin daşınmasını təmin etmək üçün çoxlu avtobuslar var. Yeongeon kampusunda Yeongeonsa yataqxana kompleksi salınıb. Kompleksdə ailəli tələbələr üçün 17 məişət yataqxanası, 533 yerlik binalar (bakalavrlar üçün) mövcuddur. Seul Milli Universitetində 16 kollec, 5 ali məktəb və 9 peşə məktəbi fəaliyyət göstərir. Humanitar Elmlər Kolleci Koreya, Çin, ingilis, fransiz, alman, rus, ispan dilləri və ədəbiyyatları, Linqvistika, Fəlsəfə, Estetika, Dini tədqiqatlar, Arxeologiya və incəsənət tarixi, Koreya, Asiya, Qərb tarixləri bölmələrindən, Humanitar, Koqnitiv elmlər, Koreya, Amerika elmləri, Fəlsəfi, Tarixi tədqiqatlar institutlarından ibarətdir. İctimai Elmlər Kolleci Siyasi elmlər, Beynəlxalq əlaqələr, İqtisadiyyat, Sosiologiya, Antropologiya, Psixologiya, Coğrafiya, Sosial təminat, Kommunikasiya bölmələrindən, Sosial Elmlər İnformasiya Mərkəzindən və s. tədqiqat mərkəzlərindən ibarətdir. Dəqiq Elmlər Kollecində Riyaziyyat, Statistika, Fizika və astronomiya, Kimya, Biologiya, Yer və ekologiya, Tibb və Baytarlıq elmləri bölmələri, eləcə də Tarix və fəlsəfə, Genetika mühəndisliyi, Beyin elmləri, Nano elmlər və texnologiya, Bioinformatika, Hesablama elmi və texnologiyası fənlərarası proqramlar, tədqiqat institutları fəaliyyət göstərir.Kənd Təsərrüfatı və Həyat Elmləri Kolleci Bitki, Meşə, Qida və heyvan biotexnologiyası, Tətbiqi biologiya və kimya, Landşaft arxitekturası və kənd mühəndislik sistemi, Biomateriallar elmi və mühəndisliyi, Kənd təsərrüfatı iqtisadiyyatı və kənd inkişafı bölmələrindən, Kənd təsərrüfatı biotexnologiyası fənlərarası proqramı, Kənd təsərrüfatı və Həyat elmləri, Kənd təsərrüfatı Biomaterialları, Bitki Molekulyar Genetikası və Becərmə Tədqiqatları, Funksional Məhsul Genomikası institutlarından ibarətdir. Təhsil Kolleci 9 əsas (Humanitar və ictimai, Dəqiq elmlər, Təsviri incəsənət, Musiqi, Pre-Med tibb, Təbabət, Pre-Veterinar tibbi, Baytarlıq, Tibb bacısı) və 4 kiçik (Humanitar və ictimai, Dəqiq elmlər, Təsviri incəsənət, Musiqi) bölmədən ibarətdir. Mühəndislik Kollecində Vətəndaş və ətraf mühit, Mexanika və aerokosmik, Material elmlər, Elektrik, Kimya və biologiya, Arxitektura, Sənaye, Enerji resursları, Nüvə, Dəniz arxitekturası və okean, Vətəndaş, şəhər və geosistem mühəndisliyi, Kompüter elmləri və texnologiya bölmələri mövcuddur. Təsviri İncəsənət Kolleci Şərq, Qərb rəssamlığı, Heykəltəraşlıq, Sənətkarlıq və dizayn bölmələrindən, Vizual İncəsənət İnstitutundan ibarətdir. Musiqi Kollecində Vokal, İnstrumental musiqi, Kompozisiya, Koreya milli musiqisi departamentləri, Asiya, Qərb, Opera musiqisi tədqiqatı institutları, Kompüter musiqisi laboratoriyası fəaliyyət göstərir. İnsan Ekologiyası Kollecində İstehlakçı, Ailə tədqiqatları və uşaq inkişafı, Qida və ərzaq, Paltar və tekstil bölmələri və eyniadlı tədqiqat mərkəzləri mövcuddur. Hüquq Kolleci əvvəllər iki departamentdən - Kütləvi və Özəl hüquq bölmələrindən ibarət olub, 1997-ci ildən isə bir fakültə altında birləşdirilib. Kollecdə Hüquq Tədqiqatları İnstitutu, Yüzillik Zal adlı hakimlər hazırlanan institut, Kuksan hüquq kitabxanası fəaliyyət göstərir. Tibb Kolleci Əsas tibb elmləri, Anatomiya, Fiziologiya, Biokimya və molekulyar biologiya, Patologiya, Farmakologiya, Mikrobiologiya və immunologiya, Profilaktik tibb, Parazitologiya və tropik tibb, Tibbin tarixi, Tibbi-məhkəmə ekspertizası, Səhiyyə siyasəti və idarəetməsi, Biotibbi mühəndislik, Daxili tibb, Cərrahiyyə, Mamalıq və ginekologiya, Pediatriya, Neyropsixiatriya, Nevrologiya, Dermatologiya, Ortopedik, Plastik cərrahiyyə, Urologiya, Oftalmologiya, Radiasiya onkologiyası və s. bölmələrdən, eləcə də 20-yə yaxın tədqiqat institutundan, xəstəxana və tibb mərkəzlərindən ibarətdir. Tibb Bacısı Kolleci xəstəyə qulluq sahəsi üzrə bakalavr, magistr və doktorluq (Ph.D) proqramları təklif edir. Kollec Tibb Bacısı Elmləri İnstitutu, Tibb Bacısı Mərkəzi və Beynəlxalq Mübadilə Mərkəzindən ibarətdir. Əczaçılıq Kolleci 1915-ci ildə Çosun əczaçılıq məktəbi adı altında yaradılıb və Koreyada bu sahə üzrə ilk ali məktəb olub. 1950-ci ildə məktəb Seul Milli Universitetinə birləşdirilib və Əczaçılıq Kolleci kimi fəaliyyət göstərib. Kollecdə Əczaçılıq Elmləri, Təbii Məhsul tədqiqatları institutları, Tibbi Bitkilər Bağı, Əczaçılıq Təhsilinin Davametdirilməsi Mərkəzi, Heyvanlar Üzərində Təcrübə Mərkəzi, Tətbiqi Əczaçılıq bölməsi və s. mövcuddur. Baytarlıq Kolleci Əsas tibbi elmlər (Veterinar anatomiya, histologiya və embrionologiya, biokimya, psixologiya, farmakologiya, toksikologiya, neyroelmlər laboratoriyaları), Tibbi profilaktika (Veterinar immunologiya, mikrobiologiya, patologiya, parazitologiya və s. laboratoriyalar) bölmələrindən, Klinikalar (Veterinar daxili tibb, cərrahiyyə, radiologiya, infeksion xəstəliklər, quş xəstəlikləri, kliniki patologiya və s. laboratoriyalar), Seul Milli Universiteti Baytarlıq Xəstəxanası, Baytarlıq Elmləri Tədqiqat İnstitutu, Heyvanların Klonlaşdırılması və Gövdə Hüceyrələrinin Tədqiqatı institutlarından ibarətdir. Ali Məktəb 98 bölmədən ibarətdir. Məktəb çoxlu sayda magistr və doktorluq proqramları təklif edir. Diplomdansonrakı təhsilin məqsədi əldə edilmiş bilik və təhsili genişləndirmək, akademik bacarıqları inkişaf etdirmək, müstəqil tədqiqat aparmaq qabiliyyətini möhkəmləndirməkdir. Seul Milli Universitetində fəaliyyət göstərən 9 peşə məktəbi bunlardır: səhiyyə, siyasi idarəetmə, ekoloji tədqiqatlar, stomatologiya, menecment, tibb, hüquq, beynəlxalq tədqiqatlar, konvergensiya texnologiyası elmi. 2016-cı ildə isə universitetin Tətbiqi Mühəndislik departamenti yaradılıb.

Seul Milli Universitetinin kitabxana sistemi ölkədə ən zəngin kitabxanalardan biridir. Sistemə 5015649 cild kitab, 276761 kitabça və digər resurslar, 101984 qəzet və jurnal, 199032 dövri nəşr, qədim mətnlər və s. daxildir. Kitabxananın əsas binası Kvanak kampusunda yerləşir və Mərkəzi kitabxana adlanır. Bununla yanaşı, hər kollec və məktəbin özünün kitabxanası fəaliyyət göstərir. Mərkəzi kitabxanada rəqəmsal bölmə var və burada sistemdə mövcud olan resursları asanlıqla əldə etmək mümkündür. Rəqəmsal kitabxanada slayd mühazirələr, dissertasiyalar, videosərgilər nümayiş olunur, elmi tədbirlər, simpozium və seminarlar təşkil edilir. Seul Milli Universiteti Muzeyi Kvanak kampusunda yerləşir və 1946-cı ildə universitetlə birgə yaradılıb. Əvvəllər ikimərtəbəli Donsun-don binasında yerləşən muzey 1993-cü ildə yeni binaya köçürülüb. 1995-ci ildə universitetin İncəsənət muzeyi yaradılıb. 2003-cü ildə inşa edilən muzeyin yeni binası qeyri-adi forması ilə diqqəti cəlb edir. Binaya baxanda elə təsəvvür yaranır ki, onun bir hissəsi havada dayanıb.

Seul Milli Universiteti liberal təhsilə əməl edir və insanlarda şəxsi keyfiyyətləri inkişaf etdirən elmlərə üstünlük verir. Cənubi Koreyanın ilk milli universiteti olan bu ali məktəb Koreya yarımadasında sülh və demokratiyanın qorunması ənənələrini davam etdirir. Bu təhsil ocağı tədrisin hərtərəfli inkişafı, beynəlxalq mübadilələrin genişləndirilməsi, təhsilin bütün sahələri üzrə novator tədqiqatların aparılması məqsədi ilə yeni-yeni layihələr həyata keçirir. Seul Milli Universiteti öz missiyasını alim və tələbələri birləşdirərək parlaq intellektual cəmiyyət, işıqlı gələcək qurmaqda görür.

## Büdcəsi və təhsil haqqı

Universitetin maliyyə departamentinin hesabatına əsasən 2016-cı ildə ali məktəbin büdcəsi 784461 milyon von (Koreya pul vahidi) olub. Universitetə olunan birdəfəlik yardımların həcmi isə 179390 milyon von təşkil edib. Universitetin akademik heyəti 5807 nəfər təşkil edir. Onlardan 1500 nəfər professordur. 2016-2017-ci tədris ilində universitetdə təhsil alan tələbələrin sayı 28630 nəfər təşkil edib. Onlardan 16511 nəfər bakalavr, 8283 nəfər magistr, 3836 nəfər isə doktorant səviyyəsində təhsil alır. Universitetdə beynəlxalq mübadilə proqramı üzrə 737 tələbə təhsilini davam etdirir. Onlardan 552-i bakalavr, 178-i magistr, 7-i doktorant təhsilinə cəlb olunub. Ötən il Koreya dili tədris kurslarında iştirak edən tələbələrin sayı 3988 nəfər olub. Əcnəbilər bütün tələbələrin 10 faizini təşkil edir. Hər il universitetə sənəd verən abituriyentlərdən cəmi 20 faizi tələbə adını qazanır.

2016-2017-ci tədris ilində bakalavr və magistr pilləsində tələbələrin təhsil haqqı məktəb və fakültədən asılı olaraq 5000-7000 ABŞ dolları arasında dəyişir. Tələbələrin yaşayış ( 545 dollar), qidalanma (374 dollar), nəqliyyat (86 dollar), rabitə və elektrik (85 dollar), geyim (78 dollar), istirahət və idman (76 dollar) kimi orta hesabla cəmi 1246 dollar əlavə xərcləri də vardır. Universitetdə ən bahalı ixtisaslar tibb fakültələri üzrədir. Seul Milli Universitetində tələbələrə müxtəlif təqaüdlər təklif olunur. Koreya Dövləti Təqaüd Proqramının bakalavr pilləsində təhsil alan tələbələrə verdiyi təqaüdün məbləği ayda 800 min, magistratura və doktorantura pillələrində isə 900 min Cənubi Koreya vonu təşkil edir. Seul Milli Universitetinin yataqxanalarında tələbələr üçün tək və ikinəfərlik nömrələr təklif olunur. Otaqlar mebellə, simsiz internetlə, trenajor zalı və 24 saat işləyən oxu zalı ilə təmin olunub. Mənzillərin qiyməti 391-596 dollar arasında dəyişir. Ailəvi yaşayış üçün icarə haqqı 90-135 dollar arasındadır. Əcnəbi tələbələr Yongon kampusundakı "International House"da yerləşdirilir. Xarici tələbələr üçün mənzillərin qiyməti ayda 126- 252 dollar arasındadır. Koreyalı ailə ilə birlikdə yaşamaq isə əcnəbi tələbəyə ayda 360 dollara başa gəlir. Universitetin prezidenti Sung Nakin qeyd edir ki, iyirmi birinci əsrdə universitetin missiyası gələcəyin yaradılmasında iştirak edən tələbə və müəllimlərin parlaq intellektual birliyini yaratmaqdır. Koreyanın aparıcı tədqiqat universiteti kimi Seul Milli Universiteti öz tələbə və müəllimlərinin diversifikasiyasına, qlobal mübadilə proqramlarını dəstəkləməyə və bütün bilik sahələrində novator tədqiqatların aparılmasına kömək göstərməyi əsas istiqamət kimi müəyyənləşdirib.

## Məşhur məzunları

Seul Milli Universitetinin bütün dünya üzrə məzunlarının sayı 330 min nəfərdir. Universitet tanınmış məzunları ilə seçilir. Ölkənin dövlət xadimlərinin, alim, siyasətçi və iş adamlarının əksəriyyəti Seul Milli Universitetini bitirib. Universiteti, adətən, dövlət qulluqçuları istehsal edən "dəmirçixana" adlandırırlar. Hətta hərdən Cənubi Koreya sakinləri bu ali məktəbi həddindən artıq elitar və bürokratik olmaqda ittiham edirlər. Məşhur məzunlar arasında Pan Gi Munu (BMT-nin 8-ci Baş katibi, Cənubi Koreyanın sabiq xarici işlər naziri), Çon Un-Çanı (Cənubi Koreyanın sabiq baş naziri), Li Hen Jeni (Cənubi Koreyanın 20-ci baş naziri), Kim En Samı (Cənubi Koreyanın yeddinci prezidenti), Kan Kum-Sili (Cənubi Koreyanın 55-ci ədliyyə naziri), Yu Mun Xvanı (Cənubi Koreyanın sabiq xarici işlər naziri), Li Çon Uku ( Dünya Səhiyyə Təşkilatının sabiq baş direktoru), Kan Yu Siqi ("LG" şirkətinin baş direktoru), Çin Dzeni (Samsunq" şirkətinin sabiq baş direktoru), Çanq Monq-junu ("Hyunday Heavy İndustries" şirkətinin sabiq icraçı direktoru, FİFA-nın vitse-prezidenti), Kim Çon Çjunu ("Nexon" korporasiyasının yaradıcısı), yazıçılar Kim Çi-Xanı, Li Xe Soku, Park Van-Seo-nu göstərmək olar.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*